

Əbülfət MƏDƏTOĞLU

Mənim yuxularımın
qəhrəmanı
sən idin
hər anımda
yanımda
amma
xəyallarımın
qəhrəmanı
mən idim
hər anında yanında!
Bir təzadın içində
qəhrəmanla qəhr olan
biri eşqlə əylənən -
biri eşqindən sınan!..
bu alın yazısında
yoxsa növbəti sınaq
hər nədisə, gəl gülüm
sevgimizə sığınaq!

* * *

Çox da hər vaxt çin olmur
ümidim də, kin olmur
hər şey kef üçün olmur -
qəm də var!

ruhum nəsə yeyir ki,
könlüm dinib, deyir ki,
hamı ayıq deyil ki -
dəm də var!

nişangahı az oxla
gülü üzdünsə, qoxla
sıranı bir də yoxla -
kəm də var

* * *

Məni özümə qaytar,
Səndə qala bilmirəm.
Haqqım olan sevgini
Səndən ala bilmirəm

Sən divarsan, mən də daş
Baş açmaq olmur ki, baş.
Quru oda yanır yaş -
Mən köz ola bilmirəm

Düşmüşəm bir axına
Yadam yada-yaxına
Bu günümlə baxın ha -
Üz-göz ola bilmirəm.

Bu gününəm, Nuhunam
Kölgənəm, ya ruhunam.
Gerçəyinəm, yuxunam? -
Yada sala bilmirəm.

* * *

Bunu indi demirəm
Gülür mənə çevrəm.
Bəli, səni sevirəm!-
Cəzamın adı həsrət,
Öz adımsa Əbülfət!..

Sevir ürək, göz görür
Od qorranır, köz görür.
Hərə bir cür söz hörür -
Qoşulan addı xiffət,
Öz adımsa Əbülfət!..

Dinlədiyim səs azan
Bir yol açıb bəxt yazan
Olmuşam Məcnun-ozan!
Cəzamın adı həsrət,
Öz adımsa Əbülfət!..

* * *

İçimdəki təkliyi
Ovuduram, ovuram,
Bu təkliyin şəklini -
Gözlərimdən qovuram
Gücüm çatmır!

Dilim sanki qıfıllı,
Ruhum tikan üstündə.
Kirpiklərim qovuşmur
Yuva tikəm üstündə -
Gücüm çatmır

Öz-özündən çoxalır
Sinəmdəki göynərti
Bu göynərti tay məni
Gücsüzlüyə öyrətdi -
Gücüm çatmır

* * *

Gözlərinin
rəngi qarışıb
demək ki,
ağlamısan
və mən
yanında olmamışam
sən
güzgüyə baxasan
baxıb
gözlərinin
rəngini qaytarasan
gözünə!..

* * *

Əsəbindən qaralıb
və bütün
gücünü toplayıb
sıxır gözünü -
hara gəldi
necə gəldi,
çırpır özünü -
dolmuş buludlar
həmişə belədi
çıxarmayınca
canındakı əsəbi
qaralacaq
sıxılacaq
və
özünə yaşadacaq
bu əzabı -
dolmuş buludlar

* * *

Şəhərimizin
yenicə salınmış
sevgi parkını
gəzirəm.
baxışlarımla
bu parkın
qız gözəlliyini
oxşayıram,
üzürəm
üstümə
çilənən



səssiz yağışın
və bilirəm ki,
həm də sənin
baxışın altında
dincəlir ruhum
bir az da
mürgüləyir
uyuyur
bəlkə də
amma
həyatı duyur
nə olar,
durub
indi gəlməsən də
heç olmasa
bu yağışın
adını sən qoy.

* * *

Gözümün kökünədək
Yeridi qəm, hopdu dərd.
Məni görən kimi tək -
Axtardığın tapdı dərd!

Qaldı əli qoynunda
Həsrət yükü boynunda.
Taleyimin oynunda -
Budağından qopdu dərd!

Qəsdi göynətmək idi
Dilin öyrətmək idi
Məni kövrəltmək idi -
İstədiyin yapdı dərd!..

* * *

Deyirəm
eşit və bil
ürəyincə
olsam da
olmasam da -
bütün hallarda
mənə görə
istəklərinə
qadağa qoyma
çünki
bu həyatda
yaşamağın
bir yolu var
o da -
sevgi
sev! sev!
və sevməkdən doyma!

* * *

Mən yoruldum kədərin
Qapısında durmaqdan
Kədərin göz yaşıyla
Əl-üzümü yumaqdan!..

Şirəmi götürsəm də
Kədərin pətəyindən,
Elə bil asılmışam -
Mən onun ətəyindən!..

Ələyir, gah qovurur
Qalığı, buxarıyam
Məni yoran kədərlə
Hamıdan yuxarıyam.

* * *

Söndü bütün ulduzlar
Ay da, günəş də söndü!
Həyat mənim gözümdə -
Bütün heçliyə döndü

Axarından qaldı su
Nə zülümdü axı bu?!
Şair bir yaralı qu -
Üzü qibləyə çöndü!..

Dağ idi, külüngləndi,
Qırıldı, çiliKləndi
İçindən diliKləndi -
Öldü, Əbülfət öldü!

* * *

Gün bəlli, tarix məlum
İçimdə bir qətliam.
Tükənən nəfəsimdi
Dizlərimi qatlayan

Daş kimi oyuluram
Su kimi durulmuram
Ürəkdən soyuluram -
Kürəkdən vurulmuram!..

Hisslərim şəhid olur
Məzarı gözün dibi
Didəmsə qanla dolur -
Nəmdi sözümün dibi

Ağı demək də yersiz
Kimdi bu yasa gələn
Bir ürəkdi kəfənsiz -
Allah, içimdə ölən!..

* * *

Mey süzüb badə verməyə,
Gəldim can fəda verməyə
Tələsmə fatihə verməyə -
Ruhumu tapşırmamışam!..

Ölümü yazan bilməyib
Günümü pozan bilməyib
Hələ qapıdan girməyib -
Ruhumu tapşırmamışam

Ayırma candan canımı
Ayırma qandan qanımı
Boş qoyma sən sol yanımı -
Ruhumu tapşırmamışam

Mələksən, həm də bəndəsən
Dində, imanda öndəsən.
Vallah, sən də mən gündəsən -
Ruhumu tapşırmamışam

* * *

Ürəyim partlasa, günahkar özüm
Demək tükənibmiş - bitibmiş dözüm
Yadında qoy qalsın sonuncu sözüm -
Ruhum da sevəcək, ruhum da səni!

Ox kimi çəkilib qopanda yaydan
Asıldım günəşdən, ulduzdan, aydan
O bəlli tarixdən, o bəlli aydan -
Yatmadım, mən görəm yuxumda səni.

Yayın istisində ələyərək qar
Fələk gen dunyamı eləsə də dar
Hələ qırılmamış bir ümidim var -
Görə biləcəyəm ruhumda səni!

* * *

Bir dərdi üzdən keçirəm
Sap olub gözdən keçirəm.
Mən nə o qızdan keçirəm -
Nə də ki, verdiyim sözdən!

Uçurdum, dönmüşdüm quşa
Qanadım toxundu daşa
Gəl indi bu ömrü yaşa -
Gəl, düşmədən eldə gözdən?!

Bir qarış tül də olmadı
Bir muncuq gül də olmadı
Əbülfət kül də olmadı -
Sənin alışdığın közdən!

* * *

Ürəyimin dözümünə
Allah, bəxtəvərlik düşür
Dərdlərimin düzümünə
Vallah, bəxtəvərlik düşür

Acıyan kimdisə mənə,
Deyim ona, həm də sənə,
Mənim tapındığım dinə -
Vallah, bəxtəvərlik düşür!

Üzünü hara çevirsən
Yazılıb orda - sevirsən,
Sən ki, sevərək gedirsən -
Sənə bəxtəvərlik düşür.

* * *

Quruyan ağaca
baxan kimi
baxıram özümə
qollarım düşüb yanıma
budaq kimi
əllərim əsir
saralan
yarpaq kimi
duyuram ki,
bu ağac
baxmağa utanır
üzümə
amma
yaxasını açıb
son gücüylə
torpaq kimi!..

* * *

Qar yağmayıb
şaxta da yoxdu
amma ruhum
üşüyür -
ürəyimə soyuqdu
həmin o yol
qalır yenə
gözüm yoldadı
gələnsə yoxdu!
Yolun boşluğundan
gözlərimə soyuqdu
o tellər
daransa da
yenə külək qarışdırır
küləklə o telləri
oxşayan əli
de indi
kim barışdırır
əllərimə soyuqdu